# Azərbaycan Memarlıq və İnşaat Universitetinin

# KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin**
**Elmi Şurasının 22.02.2023-ci il tarixli**
**İclasının qərarı ilə (protokol № 4)**
**Təsdiq edilmişdir.**

**Tarix_______________**

**İmza_______________**

**Bakı 2023**

MÜNDƏRİCAT

*1. Ümumi müddəalar*

*2. Əhatə dairəsi və prinsiplər*

*3. Rektora hesabatlılıq prinsipi*

*4.Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə*

*5. Keyfiyyətli təhsil təminatı*

*6. Resursların idarə edilməsi*

*7. Təhsil və tədqiqatlara dəstək olan  bilik resurslarının idarə edilməsi*

*8. Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması*

*9. Keyfiyyətin idarə edilməsi prosesi*

*10. İzləniləcək  keyfiyyət İndikatorları*

*11. İctimaiyyətin məlumatlandırılması*

*12. Xarici keyfiyyət təminatı təşkilatına  müraciət*

*13. Yekun*

## 1. Ümumi müddəalar

Müasir dövrdə bacarıq və qabiliyyətlərə qoyulan tələblər artdığı üçün ali təhsil həmin tələblərə yalnız innovativ metodlardan istifadə etməklə cavab verə bilər. Ali təhsilin dəyişən gözləntilərə cavab verə bilməsi üçün Azərbaycan Memarlıq və İnşaat Universitetin fəaliyyətinin tədris prosesində tələbəyə fərdi yanaşmanın artırılması və yeni şəraitə çevik uyğunlaşa bilən tədris metodlarından istifadə olunması zəruridir.

Universitetin keyfiyyət təminatı siyasəti Azərbaycan dövlətinin təhsil siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması yolu ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli və yüksək ixtisaslı kadr-mütəxəssislərin hazırlanmasından ibarətdir.

Mövcud keyfiyyət təminatı siyasəti Universitetin Strateji inkişaf planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. Keyfiyyət təminatı siyasəti Universitetdə həyata keçirilən fəaliyyətlərin Boloniya təhsil prosesinin müddəalarına, “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə,“Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar”a, dövlətin bu sahədəki direktiv sənədlərinə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinə əsaslanır.

Universitetimizin bu dəyişikliklərə cavab verməsində, eləcə də tələbələrin əldə etdiyi bilik və bacarıqların təmin edilməsində keyfiyyət təminatının və müəyyən olunmuş standartların rolu olduqca əhəmiyyətlidir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin keyfiyyət təminatı siyasətinin əhatə dairəsi inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasını və bu təhsil proqramlarının optimallığının, mobilliyinin təmin olunması monitorinqinin müvafiq standartlara uyğunluğunun qiymətləndirilməsini təmin etməklə yanaşı, dünyada gedən qlobal proseslər və çağırışlara uyğun olaraq informasiya texnologiyalarının inkişafı şəraitində tələbə gənclərə bu proseslərin daha səmərəli öyrədilməsi metodologiyasını müəyyənləşdirmək üçün tələbə yönümlü tədris sisteminin formalaşdırılmasını özündə ehtiva edir. Bu sistemdə təhsilalanların yüksək keyfiyyətli tədris vəsaitləri ilə təmin edilməsi onların tədrisdə daha uğurlu nəticələr əldə etməsinin başlıca şərtlərindən biridir. Təhsil proqramları ilə yanaşı tədris metodik təminatların qaydalar və standartlara uyğunlaşdırılması vacibdir. Azərbaycan Memarlıq və İnşaat Universitetində bütün tədris-metodik vəsaitlər qoyulmuş tələblərə uyğun tərtib edilməlidir. Tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemi tələbələrin tədris

prosesində daha fəal iştirakına şərait yaratmaqla onların motivasiyasının yüksəldilməsinə xidmət edir, onlarda özünütəhlil, müstəqil düşüncə qabiliyyətini formalaşdırmaqla yanaşı mövcud vəziyyəti təhlil edib qiymətləndirmək qabiliyyətini aşılamalıdır.

**Universitetin keyfiyyət təminatının məqsədləri:**

1. Tədris prosesinin keyfiyyətinin artırılmasına nail olmaqla Universitetin ölkə və beynəlxalq səviyyədə rəqabət qabiliyyətini yüksəltmək
2. Avropa Standartlarına və Təlimatlarına uyğun olaraq və milli tələbləri nəzərə alaraq vahid daxili keyfiyyət təminatı sistemi işləyib hazırlamaq
3. Universitetdə keyfiyyət təminatı mədəniyyəti haqqında məlumatlılığı artırmaq
4. Daxili keyfiyyətin yüksəldilməsinə, hesabatlılığın artırılmasına və bununla da, keyfiyyət standartlarının praktiki tətbiqinə istiqamət vermək
5. Maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini qarşılamaq məqsədilə Universitetdə keyfiyyət təminatı sisteminə uyğun olaraq fəaliyyətlərin sistemləşdirilməsinə, təkmilləşdirilməsinə və hesabatlılığın artırılmasına yönəlmək
6. Maraqlı tərəflərin, xüsusən də öyrənənin və öyrətənin məmnunluq səviyyəsini artırmaq

## 2. Əhatə dairəsi və prinsiplər

Mövcud Keyfiyyət Təminatı Siyasəti Universitetin bütün şöbə və struktur bölümlərində keyfiyyət idarəetmə sisteminin strukturlaşdırılması və idarə edilməsi zamanı Azərbaycan Dövlətinin  təhsil siyasəti və müasir keyfiyyət idarə edilməsi anlayışına əsaslanır və bütün əmakdaşlar tərəfindən qəbul edilən əsas elementləri əhatə edir.

Siyasət Universitet daxilində müxtəlif bölmələr və şöbələr arasında idarəetmə funksiyalarını yerinə yetirərkən hansı növ rabitə-kommunikasiya sisteminin mövcudluğu, qərarların qəbulu məsləhətləşmə, təsdiq və monitorinq proseslərini izah edir və təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının həyata keçirilməsini təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm-davamlı mövcudluğunu ehtiva edir. Müvafiq struktur-bölmə rəbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında koordinasiya gücləndirilir və dəstəklənir. Struktur bölmələri arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi üçün mütəmadi təlimlər, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir. Bütün struktur bölmələri öz strategiyalarını və

vəzifələrini universitetin strategiyasına, missiyasına və hədəflərinə nail olmaq üçün tələb olunan fəaliyyətlərə uyğun olaraq planlaşdırır və həyata keçirirlər. Universitetin strategiyasına, missiyasına və hədəflərinə nail olmaq üçün həyata keçirilən tədbirlərin səmərəliliyi məlumatlar əsasında qiymətləndirilir və ona uyğun müvafiq qərarlar lazım gəldikdə yenilənir. Əldə olunan uğurlar və təkmilləşdirmənin davamlı olmasına mütəmadi nəzarət olunur.

Universitetin əsas məqsəd və vəzifələri olan təlim-tədris və tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün lazım olan akademik və inzibati heyətin, infrastrukturun, avadanlıqların və digər zəruri obyektlərin müəyyən edilməsi üçün universitet rəhbərliyi ilə struktur rəhbərləri arasında mütəmadi görüşlər olur. Universitetin missiyasına, məqsəd və vəzifələrinə uyğun prioritetlər universitet rəhbərliyi və struktur rəhbərlərinin birgə iştirakı ilə müəyyən edilir.

Müəyyən olunmuş prioritetlərə uyğun fəaliyyət göstərmək və keyfiyyətin yüksəldilməsi üçün lazım olan resurslar universitet rəhbərliyi tərəfindən təmin olunur. Lazım olan resursların təmin olunması və bölüşdürülməsindəki əsas müəyyənedici amil fəaliyyətlərin ölçmə və qiymətləndirilməsinin nəticələridir. Hər bir əməkdaşın vəzifə təlimatları var və bu təlimatlar onların vəzifə, səlahiyyət və məsuliyyətlərini müəyyən etmək üçün hazırlanır və müntəzəm olaraq yenilənir. Əməkdaşların bilik və bacarıqlarını qorumaq və onlardan tələb olunan kompetensiyaları saxlamaq üçün uyğun ehtiyacları müəyyən edilir və lazımi ixtisasartırma təlimləri keçirilir.

Struktur və bölmələr strateji inkişaf planına uyğun olaraq gələcək fəaliyyətlərini həyata keçirəcək işçi heyətin planlaşdırılması aparılır. Strateji planda göstərilən hədəf və məqsədlərdən asılı olaraq struktur və bölmələrdə ehtimal olunan dəyişikliklər və iş bölgüsü əsasında universitetdə kadr planlaşdırılması aparılır.Aydındır ki, tədris, təlim və tədqiqata cavabdeh olan işçi heyət tədris, təlim və tədqiqat aparmaq üçün yetərli bilik və bacarıqlara sahib olmalıdır. Bu bacarıqları dəstəkləmək üçün müvafiq resurslar təmin edilir və təlimlər verilir. Akademik heyətin fəaliyyətinin müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirilməsi mütəmadi olaraq aparılır. İnzibati kadrların vəzifəyə təyin olunması onların vəzifə təlimatlarında müəyyən edilmiş qiymətləndirməyə uyğun olaraq aparılır. Mütəmadi olaraq inzibati heyətin gördükləri işlərin yaxşılaşdırılması və onların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün tədbirlər görülür.

Universitetin strategiyasına, missiyasına, məqsəd və vəzifələrinə, o cümlədən, korporativ prinsiplərinə uyğun olaraq digər müəssisə və təşkilatlarla əməkdaşlıq planlaşdırılır və həyata keçirilir.

Mövcud Keyfiyyət siyasəti Kitabçası Universitetdə təhsil prosesinin daxili və xarici keyfiyyət təminatı üzrə standart və təlimatlar toplusudur. Universitetmizin əsas məqsədlərindən biri tələbələrin cəmiyyətdə fəal vətəndaş olmağa və gələcəkdə karyera qurmağa hazırlanması, şəxsiyyət kimi inkişaf etmələrinə töhfə verilməsi, müasir və geniş biliklər bazasının yaradılması, tədqiqat və innovasiya yanaşmalarının stimullaşdırılmasıdır. Keyfiyyət təminatı məsələlərində bütün maraqlı tərəflərin (tələbə, işçi heyyəti, işə götürənlər və s.) keyfiyyət anlayışına müxtəlif aspektlərdən yanaşması nəzərə alınmalıdır.

Keyfiyyət təminatı sistemi elə bir tədris mühiti təmin etməlidir ki, tədris proqramların məzmunu, biliklərin əldə edilməsi imkanları və resurslar nəzərdə tutulmuş məqsədlərə uyğun olsun.

Universitetin keyfiyyət təminatı aşağıdakı dörd prinsipə əsaslanır:

- Universitet göstərdikləri təhsil xidmətlərinin keyfiyyət təminatına birbaşa cavabdehlik daşıyır;
- Keyfiyyət təminatı Universitetdə davamlı şəkildə hər bir sahəni əhatə edərək həyata keçirilir;
- Keyfiyyət təminatı sistemi keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsini dəstəkləyir;
- Keyfiyyət təminatı tələbələrin, digər maraqlı tərəflərin və cəmiyyətin ehtiyaclarını və təhsildən gözləntilərini nəzərə alır.

## 3. Rektora hesabatlılıq prinsipi

Universitetin rektoru keyfiyyətə nəzarət sisteminin inkişafı, tətbiqi və davamlı təkmilləşdirilməsi üçün lazım olan bütün işlərə bilavasitə özü nəzarət və rəhbərlik edir. Bu məqsədlə Universitetimizin rəhbərliyi:

- Keyfiyyət siyasətini və keyfiyyət məqsədlərini müəyyən edir, onların Universitetin strateji siyasətinə və əhatə dairəsinə uyğun idarə olunmasına nəzarət edir.
- Universitetin Elmi Şurasında Keyfiyyət təminatı istiqamətində təqdim olunan hesabatları qiymətləndirir.

## 4.Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə

Tələbəyönümlü təhsil və tədris tələbələrin motivasiyanın artırılması, özünü təhlil etməsi və təhsil prosesinə cəlb olunmasında vacib rol oynayır. Bu səbəbdən, tədris

proqramlarının tərtibi və tədrisi, eləcə də nəticələrin qiymətləndirilməsi diqqətlə nəzərdən keçirilməlidir.

Universitetin Keyfiyyətə Nəzarət Mərkəzinin əsas məqsədlərindən biri tələbələrin ehtiyac və gözləntilərini müəyyən etmək və bu gözləntilərin qarşılanmasını təmin etmək üçün lazımi tədbirləri həyata keçirməkdir. Bu çərçivədə, hər il müntəzəm olaraq tələbə, akademik və inzibati heyyətə məmnuniyyət anketləri əsasında sorğular keçirilir və nəticələr Rektor və bölmə rəhbərlərinə təqdim olunur. Təhlil nəticəsində təkmilləşdirməyə ehtiyac olan bölmələrin rəhbərlərindən bu istiqamətdə tədbirlər planı tələb olunur.

Tələbəyönümlü təhsil və tədrisin həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur:

- ehtiyac olduğu hallarda tədrisin müxtəlif yollarla həyata keçirilməsini nəzərdən keçirmək və tətbiq etmək;
- tədris formalarını və pedaqoji metodları daim qiymətləndirmək və dəyişən tələblərə uyğunlaşdırmaq;
- müəllimdən müvafiq təlimat və yardım almaq şərti ilə tələbələrdə müstəqil düşünmək qabiliyyətini stimullaşdırmaq;
- tələbə və müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulmasını təmin etmək;
- tələbələrin şikayətlərinə baxılması üçün müvafiq proseduralar yaratmaq.

## 5. Keyfiyyətli təhsil təminatı

Keyfiyyətli təhsilin təminatl istiqaməti Universitemizin strategiyasının tərkib elementidir və onun təhsil fəaliyyətinin planlaşdırılması üçün əsasdır.

Təhsil sahəsində Universitemizin keyfiyyət siyasətinin əsas məqsədi peşəkar fəaliyyət sahələrinin müasirliyini və inkişafını qabaqcıl nailiyyətlər səviyyəsində təmin edə bilən, ölkədə və xaricdə rəqabətədavamlı məzunların hazırlanmasıdır.

Bu məqsədə nail olmağın təmin edilməsində təhsilin keyfiyyəti istiqamətində Universitetin **vəzifələri**:

- Biliklərə əsaslanan cəmiyyətin ehtiyaclarının təmin edilməsi üçün kadr hazırlığının yeni sahələrinin açılması və tədris proqramlarının strukturunun və məzmununun təkmilləşdirilməsi, fasiləsiz və çoxpilləli təhsil sisteminin inkişafının təmini;
- Bilik və texnologiya transferi sahəsində innovativ inkişaf və təlim üçün infrastrukturun genişləndirilməsi;

- Məzun hazırlığının yüksək keyfiyyətinin əsası kimi multidissiplinar və fənlərarası fundamental və tətbiqi elmi tədqiqatların inkişafı;
- Bütün səviyyələrdə yüksək keyfiyyətli universitet təhsilinin əsası kimi aparıcı elmi və pedaqoji mühitlərin dəstəklənməsi və hərtərəfli inkişafa addımlamaq;
- Yerli və xarici ali təhsil müəssisələri və digər təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsi;
- Əsas işəgötürənlərlə qarşılıqlı əlaqənin genişləndirilməsi, onların tədris prosesinin məzmunu və formalarının müəyyənləşdirilməsinə və təhsil fəaliyyətinin maddi-texniki təminatına cəlb olunması;
- Müasir elmi və tədris avadanlığının əldə edilməsi və bununla bağlı infrastrukturun inkişaf etdirilməsi yolu ilə tədris prosesinin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- Təhsilalanların müstəqillik və liderlik keyfiyyətlərinin inkişafı, biliklərin daim yenilənməsinə ehtiyac, yüksək mədəniyyətli, sosial cəhətdən aktiv və ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşdırılması;
- Dünya təhsilinin inkişaf tendensiyalarını və Boloniya prosesinin təcrübəsini nəzərə almaqla təhsilin yüksək keyfiyyətinə, kollektivdə keyfiyyət mədəniyyətinin formalaşmasına zəmanət verən müasir idarəetmə sisteminin işlənib hazırlanması.

**Qarşıya qoyulmuş vəzifələri həll edərək Universitet:**

▪ Keyfiyyət meyarlarını nəzərə almaqla tədris prosesini təşkil edir, təhsilin keyfiyyətinə dair tədris-metodiki və digər normativ sənədləri yaradır və təkmilləşdirir. Yeni təhsil texnologiyalarından istifadə üçün maddi şəraiti təmin edir.

▪ Həm proqram, həm də institusional akkreditasiya üçün müvafiq yerli və xarici təşkilatlara müraciət edir. Təhsilin keyfiyyətinin idarə edilməsi problemlərinə dair elmi-metodiki iclaslar keçirir.

▪ Tədris prosesini həyata keçirən elmi müəssisələr, işəgötürənlər və müəsissələrlə birbaşa və əks əlaqənin təmin edilməsi mexanizmlərini formalaşdırır.

▪ Universitetin laboratoriya və təcrübə bazalarını, maddi-texniki təchizatını təmin etmək məqsədilə tədris planlarının və proqramlarının işlənib hazırlanması üçün elmi-tədqiqat müəssisə və işəgötürənləri cəlb edir.

▪ Tələbələri sistemli şəkildə elmi və praktik fəaliyyətə cəlb edir və onların təşkilatçı rolu üçün praktiki təlim formalarını işləyib hazırlayır. Tələbələrin

yaradıcılıq potensialının üzə çıxarılmasına şərait yaradır, onların şəxsiyyətinin özünü dərk etməsinə kömək edir.

▪ Təhsilin keyfiyyətinin öyrənilməsini təşkil edir və akademik heyətin elmi və pedaqoji bacarıqlarının yüksəldilməsi sistemini təkmilləşdirir. Universitet əməkdaşlarının təhsilin keyfiyyətinin yüksəldilməsinə marağını stimullaşdıran şərait yaradır. Təhsilin keyfiyyəti məsələlərində əməkdaşların vəzifə və səlahiyyətlərinin tənzimlənməsini təqdim edir.

▪ Universitet məzunlarının işlə təmin olunması sahəsində analitik-ekspert fəaliyyəti göstərir.

## 6. Resursların idarə edilməsi

Universitetin öz missiyasına uyğun olaraq yerinə yetirməli olduğu xidmətlərin keyfiyyətinə təsir edən mühüm amillərdən biri də bu xidmətlərin göstərilməsi zamanı istifadə olunan resursların (otaqlar, avadanlıqlar və materialların) keyfiyyətidir.

Bu, universitet əməkdaşlarının və təhsilalanların hərtərəfli təhlükəsizliyi ilə sıx bağlıdır. Bunu təmin etmək üçün universitet lazımi planları hazırlayır və həyata keçirir. Bu planlar aşağıda verilmişdir:

- Fövqəladə Hallar Planı,
- Yanğın təhlükəsizliyi və evakuasiya planı,
- Kurs alətlərinə baxım, təmir və monitorinq planı,
- Auditoriya, laboratoriyalar, ofislər kimi məkanların baxım və təmir planları
- Obyekt avadanlıqları (lift, kondisioner, istilik sistemləri, enerji sistemləri və s.) baxım, təmir və monitorinq planı,
- İnformasiya Texnologiyaları sahəsində infrastruktur, avadanlıq və proqram təminatına baxım və yeniləmə planı,
- Təhlükəli maddələr və kimyəvi maddələr üçün təhlükəsizlik planı.

Bu planları hazırlamaq üçün ilk növbədə inventar tədqiqatı aparılır və bütün qurğu və avadanlıqlar qeydiyyata alınır. Qeydiyyat sistemi inventarlaşdırılan qurğu və avadanlıqların izlənilə bilən olmasını təmin edir.

Planların həyata keçirilməsi prioritetləri, təxmini xərclər və resursların bölüşdürülməsi məsul bölmənin və rəhbərliyin birgə qərarı ilə müəyyən edilir. Müvafiq hallarda planlara həyata keçiriləcək təlimlər (evakuasiya məşğələləri, yanğın təhlükəsizliyinə aid olan məşqlər və s.) də daxil edilir.

## 7. Təhsil və tədqiqatlara dəstək olan bilik resurslarının idarə edilməsi

Universitet təhsilalanların onlara lazım olan bilik və bacarıqları əldə etməsi üçün zəruri olan resursların adekvatlığını və tədris proqramlarına uyğunluğunu təmin edir.

Tədris üçün məsul olan təlimatçılarla yanaşı, tələbələrin də onların öyrənmələrinə töhfə verəcək resursları asan əldə etmə imkanları olmalıdır. Bu resurslara kitabxanalar, labarotoriyalar, İKT resursları, internetdən istifadə imkanları, fiziki resursları nümunə göstərə bilərik.

Müəssisə kitabxana və bölmələrindəki informasiya resurslarını və internetə çıxış imkanlarını təhsilalanların ehtiyac və gözləntilərinə uyğun təşkil etməli və onların tələbə və tədqiqatçıların istifadəsinə hazır vəziyyətdə saxlamalıdır. Universitet tərəfindən müntəzəm olaraq öyrənmə və tədqiqat üçün resurslara nəzarət edilir və onlar təkmilləşdirilir.

Universitet daxilində təhsil, təlim, təqdiqat və digər xidmət fəaliyyətləri üçün zəruri olan proseslərin hər bir struktur və bölmə əməkdaşları tərəfindən eyni formada və standart şəkildə yerinə yetirilməsi müəyyən edilir və təmin olunur. Bunun üçün lazım olan ümumi qaydalar və prinsiplər, zəruri olan prosedurlar və məsul şəxslər müəyyən olunur. Müvafiq fənlərin tədris proqramlarının, sillabuslarının hazırlanması, yenilənməsi, təsdiqi və icrası prosesləri maraqlı tərəflərin iştirakı ilə müəyyən edilir və idarə olunur. Tədris prosesində zəruri olan təlim nəticələri və ehtiyacları, təlim resursları, tələbələrin öyrənmə nəticələrini və inkişafını yoxlamaq üçün müvafiq monitorinq üsulları nəzərə alınır. Tələbələrin məzun olma prosesi, universitetdən kənarlaşdırma və müvafiq sənəd və arayışların verilməsi prosesləri müəyyən olunmuş qaydalarla həyata keçirilir və tənzimlənir. Tədqiqat və elmi işlər universitetin strateji hədəflərinə və məqsədlərinə uyğun olaraq planlaşdırılır və lazımi dəstək prosedurları formalaşdırılmalıdır. Bu proseslərin icrası və monitorinqi üçün zəruri prosedurlar müəyyən olunur və nəzarət mexanizmi müəyyənləşdirilir. Proseslərdə resurslardan səmərəli istifadə olunması üçün nəzarət mexanizmi formalaşdırılır. Tələbələrə, əməkdaşlara və cəmiyyətə göstərilən xidmətlərlə bağlı proseslər müəyyən edilir və idarə olunur. Prosesin icrasına müvafiq bölmə tərəfindən nəzarət edilir. Zəruri hallarda təkmilləşdirmə tədbirləri həyata keçirilir. Təkmilləşdirmə fəaliyyətlərində keyfiyyətin yaxşılaşdırılması və inkişafının əsas

prinsiplərindən istifadə olunur. Bu proseslərin təkmilləşdirilməsi və inkişaf etdirilməsi zamanı daxili və xarici maraqlı tərəflərin gözləntiləri və rəyləri nəzərə alınır.

## 8. Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması

Ümumi Keyfiyyət idarəetməsi müəssisənin idarəetmə yanaşmasıdır. Bu çərçivədə Universitet keyfiyyət mədəniyyətinin inkişafı və keyfiyyətin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirir. Universitet keyfiyyətin təkmilləşdirilməsi tədqiqatlarını bütün bölmələrində və bütün əməkdaşları tərəfindən həyata keçirilməli olan bir fəaliyyət kimi qəbul edir. Müvafiq aidiyyəti struktur-bölmələrin rəhbərliyi altında universitetdə keyfiyyət mədəniyyətinin yayılması üçün səylər göstərilir. Bu məqsədlə akademik və inzibati heyətin keyfiyyətin idarə edilməsi və keyfiyyətin yüksəldilməsi ilə bağlı məlumatlandırılması üçün təlimlər təşkil edilir və həyata keçirilir. İşçilərin keyfiyyətin artırılması fəaliyyətlərində iştirakı dəstəklənir və həvəsləndirilir.

## 9. Keyfiyyətin idarə edilməsi prosesinin təşkili

***Planlaşdır-Tətbiq et-Yoxla-Tədbir* gör** (PTYT) anlayışı universitetimizdə Keyfiyyət idarəetmə prosesinin əsasını təşkil edir.

*Planlaşdır-Tətbiq et-Yoxla-Tədbir gör* tsikli çərçivəsində:

Bütün təkmilləşdirmə tədbirləri planlaşdırılır. Bu planlarda mövcud vəziyyət, əldə olan məlumatlar qiymətləndirilir və həyata keçiriləcək fəaliyyətlərdən sonra əldə olunacaq nəticə ilə bağlı hədəflər müəyyən edilir;

Təkmilləşdirmə üçün tövsiyələr əsas problemi tapmaq üçün təhlillərin nəticələrinə əsaslanır. Bu təhlillər ən müasir məlumat və metodlardan istifadə etməklə aparılır. Mümkün olduqda müvafiq təlimatlar istifadə olunur;

Planlaşdırılan təkmilləşdirmə xüsusilə yüksək riskli, yüksək həcmli proseslərə aiddirsə, tətbiq seçilmiş pilot bölmələrdən başlayır və təsiri müşahidə edildikdən sonra genişləndirilir;

Tətbiqin təsirləri qiymətləndirilir və ilkin məlumatlarla icradan sonrakı məlumatlar müqayisə edilərək yoxlanılır. Gözlənilən məqsədə çatma vəziyyəti qiymətləndirilir. Buna nail olunmazsa, lazımi tədbirlər görülür və yeniləmələr aparılır;

Məlumatlar vaxtaşırı yenidən qiymətləndirilir və əldə edilən təkmilləşdirmənin davamlı və dayanıqlı təsirə malik olub-olmadığına nəzarət edilir;

Bütün proses və sistem dəyişiklikləri yuxarıda qeyd olunan əsas addımları yerinə yetirərək və onları qeyd etməklə həyata keçirilir. Hisslər və emosiyalar deyil, məlumat və sübutlara əsaslanan rasional qərar mexanizmləri işlədilir.

## 10. İzləniləcək keyfiyyət İndikatorları

Universitet missiyası ilə müəyyən edilmiş əsas fəaliyyət sahəsindəki fəaliyyətini davamlı olaraq izləyir. Nəzarət ediləcək fəaliyyət və keyfiyyət göstəriciləri Universitetin Elmi Şurası və rektoru tərəfindən müəyyən edilir. Nəzarət olunacaq göstəricinin müəyyən edilməsində istifadə olunan prioritetləşdirmə metodu yazılır.

Aşağıdakı sahələrdə monitorinqlər aparılır:

- *Tələbələrin inkişafı və müvəffəqiyyəti;*
- *Məzunların məşğulluğu;*
- *Proqramların qiymətləndirilməsi;*
- *Tədqiqatın keyfiyyəti;*
- *Nəşrlərin keyfiyyəti;*
- *Xidmətlərin keyfiyyəti;*
- *Maliyyə menecmenti;*
- *Resurslardan səmərəli istifadə;*
- *Tələbə məmnuniyyəti;*
- *İşçi məmnuniyyəti.*

Monitorinq edilən fəaliyyət göstəricilərinin məlumatları səlahiyyətli şəxslər tərəfindən qiymətləndirilir və təhlil edilir.

Məlumatlar Universitetin əvvəlki illərdəki məlumatları və mənbələrdə təqdim olunan standartlarla müqayisə edilir. Alınan nəticələrə uyğun olaraq zəruri tədbirlər planlaşdırılır.

**Tədris proqramların monitorinqi**

Tədris proqramlarının müntəzəm olaraq monitorinqinin aparılması, nəzərdən keçirilməsi və düzəlişlərin edilməsində məqsəd tədris prosesinin lazımi qaydada icrasının təmin edilməsi və tələbələr üçün əlverişli tədris mühitinin yaradılmasıdır.

Buraya aşağıdakı məsələlərin qiymətləndirilməsi daxil edilir:

- tədris edilən proqramların həmin sahə üzrə əldə olunan nailiyyətlərin nəticələrini əks etdirməsi və ixtisas üzrə Təhsil proqramlarına uyğun olmasının təmin edilməsi;
- cəmiyyətin dəyişən ehtiyaclarına cavab verməsi;

- tələbələrin proqramdan gözlədikləri nəticələr, onların ehtiyacları və proqramdan məmnunluqları;
- tədris mühiti, yardımçı xidmətlər və qeyd olunanların proqramın məqsədlərinə uyğun olması.

Tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə proqramlar daima nəzərdən keçirilərək onlara düzəlişlər edilir. Toplanmış məlumatların təhlili aparılır və proqramın aktuallığını təmin edilməsi üçün müvafiq düzəlişlər edilir. Düzəliş edilmiş proqram ictimaiyyətə təqdim edilir.

## 11. İctimaiyyətin məlumatlandırlması

Universitetin əsas fəaliyyət sahəsinə aid olan təhsil, tədqiqat və xidmətlər və bu xidmətlərin icrası haqqında ən müasir, qərəzsiz və obyektiv kəmiyyət və keyfiyyət məlumatları dərc edilir. İctimaiyyətin dərc edilmiş məlumatlara çıxışı təmin edilir.

## 12. Xarici keyfiyyət təminatı təşkilatına müraciət

Xarici keyfiyyət təminatı prosesləri təşkilatın daxili keyfiyyət təminatı sisteminin effektivliyini qiymətləndirir. Təşkilat daxili keyfiyyət təminatı sisteminin xarici qiymətləndirmə aparılaraq fəaliyyətinin düzgün istiqamətdə olduğunu müəyyən edir.

Universitetin xarici keyfiyyət təminatı agentlikləri ilə nə vaxt və necə əlaqə saxlamağa dair aydın prosedurları var. Xarici keyfiyyət təminatı təşkilatlarına müraciətin sonunda əldə edilən nəticələr Universitet daxilində və ya xaricində elan edilir.

## 13. Yekun

Təcrübəsi və yaradıcılığı ilə təhsil, tədqiqat və texnologiyada qabaqcıl universitet olmağı hədəfləyən Universitetimizin təlim-tədris və idarəetmə strukturunda strateji inkişaf məqsədləri aşağıdakılardır:

1. Ölkə iqtisadiyyatının müvafiq sahələrinin müasir tələblərinə uyğun gənc mütəxəssislərlə təmin edilməsi, layiqli vətəndaşların yetişdirilməsi;

2. Universitetdə ixtisas təhsilinin müxtəlif səviyyələrinin inkişafının təmin edilməsi (orta ixtisas, bakalavriat, magistratura, doktorantura);

3. Ömürboyu təhsil konsepsiyasına uyğun əlavə təhsil formalarının hazırlanması və geniş tətbiqi;

4. Universitetin Azərbaycanda memarlıq, inşaat və başqa sahələr üzrə kadr hazırlığında və elmi-tədqiqat sahəsində lider mövqeyinin gücləndirilməsi;

5. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarının inkişafında elmi və mütəxəssis kadrların fəal iştirakı;

6. Professor-müəllim heyətinin innovativ fəaliyyətinin inkişaf etdirilməsi;

7. Universitetin istehsalat qurumları ilə (dövlət və biznes) təhsil, təcrübə, elmi-tədqiqatlar istiqamətlərində hərtərəfli əlaqələrinin təmin edilməsi;

8. Rəqəmsal texnologiyaların bütün sahələrdə geniş tətbiqi;

9. Universitetin beynəlxalq təhsil sisteminə inteqrasiyası və rəqabətliliyinin artırılması;

10. Nüfuzlu reytinq sistemlərində universitetin layiqli yer tutması;

11. Bütün səviyyələrdə mütəxəssis hazırlığı proqramlarının ekspertizadan və beynəlxalq akkreditasiyadan keçməsi;

12. Universitetin cəmiyyətlə çoxşaxəli əlaqələrinin təmin edilməsi: - ictimaiyyətlə əlaqələr sisteminin inkişafı; - marketinq fəaliyyətinin inkişafı; - ekoloji problemlərin həllində universitetin fəal mövqeyinin təmin edilməsi; - xeyriyyəçilik fəaliyyətində tələbə və müəllimlərin iştirakı